# SÖZÜ, ŞEİRİ UCUZ OLMAYAN ŞAİR

**(əvvəli ötən sayımızda)**

**"Durnalar və raketlər" seirində Şairin fikri, düşüncələri, narahatçılığı milli çərçivəni aşaraq bəşəri xarakter alır. Şair dünyanı dünyagirlərdən qorumaq, həyatı bütün gözəlliyi ilə hifs etmək üçün maraqlı poetik yanaşma ilə problemin həllinə can atır. Sanki ana məhəbbəti keşik çəkir!...**

***Niyə dalğın durur, o dağ, o dəniz,***
***Niyə bu təşvişin görünmür sonu.***
***Dünyanı harada gizlədək ki biz,***
***Raketlər görməsin. tapmasın onu.***

Bahadur Fərmanın anasına həsr etdiyi şeirlər də çox hərarətlidir. Bu şeirlərdə sanki ürək özü dilə gəlir, məhəbbət özü danışmağa başlayır "Ağ saçlım mənim", "Anama məktub", "Anam kimi", "Anamdan ayrılarkən", "Anamın yanına qayıtmışam", " Hərənin payına bir ana düşür" və s.

"Ağsaçlım mənim" şerində qayğıkeş ana - oğul dialoqu təbii şəkildə verilmişdir. Şair ana demir, gecəli-gündüzlü yanan çıragım, saçları agım deyir, Məlumdur ki,çıraq gecələr yanır. Ana adlı çıraq üçün isə bunun fərqi yoxdur. Həmişə çıraq kimi yandıqları üçün bizim anaların ömrü az olur.

***Sən yenə narahat yatdın bu gecə.***
***Bəlkə gəlin ilə söz-söbət olub ?***
***-Yox ana.***
***Bəlkə giley-güzar, ya qeybət olub ?***
***-Yox anam.***
***Bəlkə pis adamdır müdürün oglum?***
***Dəyiş iş yerini qurbanın olum.***
***- Durub gecə yarı papiros çəkirsən***
***Biryolluq tərk elə bu andırı sən!***

"Anamdan ayrılarkən " serində oğluna görə bütün dünyadan narahat olan ana, hətta oğlunu yola saldığı avtobus sürücüsünün onun gözləri ilə yollara baxmasını arzu edir.

Çünki, ana gözləri baxan yollarda "işıqfora" ehtiyac olmur. Dünya öz nizamını itirmir.

Məmməd Araz demişkən- "Dünya durulaşır ana səsindən".

***Yol uzaq, bir xəta olmasın deyə***
***Anam istərdi ki,sürücü oğlan,***
***Onun gözləri ilə baxa yollara,***
***Mülayim insanlar cixa yollara.***

Şair ana məhəbbəti böyükdür demidir. O böyüklüyü , ülviliyi, bədii detallarla təsdiq edib oxucunu inandırır. Əslində ana məhəbbəti ilahi-duaları ilə bütün yol boyu oğluna keşik çəkir.

***Avtobus dayanır bir yol başında.***
***Biletlər yoxlanır ,yenə də bir-bir.***
***Bir kimsə bilmir ki, bu gün maşında***
***Bir ana ürəyi biletsiz gedir.***

"Dörd cığır" şerində Şair doğulduğu dağ kəndində qonaq olduğu dörd günün mənzərəsini qələmə almışdır:

***Gəldim kəndimizə--dörd yanı dağlar,***
***Evlər bahar dolu, abadan olsun.***
***Burda hər qonağın öz hörməti var,***
***Hansı eldən olsun ,obadan olsun.***

Dağlar qoynunda yerləşən kənddə axşamın düşməsinin poetik mənzərəsi bədii detallarla, yüksək sənətkarlıqla işlənilmişdir. Şərhsiz!

***Pozulmuş misra tək görünür cıgır,***
***Yanır çəmənlərin böcək şamları.***
***Günəşi ötürüb kəndə qayıdır,***
***Soxança qoxulu kənd axşamları.***

Şairin doğma kəndi ilə vidalaşmasında ana dilimizin bal dadının ləzzəti poetik misralara hopur.

Sanki, ana laylasının təsiri altında insan, zirvəsi qarla örtülü dağlara, gözəllik məkanına səyahət edir.

***Anam qocalıbdır a Qoşqar dağı...***
***-"Oğul nə söylədin bu bahar çağı ?"***
***Məni biçənəkdən quşlar ötürür,***
***Yol boyu gül -çiçək qoparıram mən.***
***Dağlar pay göndərib anamdan ötrü,***
***Anama cavanlıq aparıram mən.***

Uşaq evində böyüyən günahsız uşaqların acı taleyi də şair diqqətindən yayınmamışdır. Onlara sahib duran bir ana var. O ananın adı Vətəndir!..Ürək göynədici misraları diqqətə çatdırıram:

***- Atan varmı,ay oğul?***
***- Ögey anam apardı.***
***- Anan varmı, ay oğul?***
***- Ögey atam , apardı.***
***Doğub tulladılar,dünya dağıldı.***
***Atmır balasını vəşilər belə?***
***Qadınlar, südünüz yerə sağıldı,***
***Niyə alçaq oldu kişilər belə?***
***Sərtliklə bərkiyir o kövrək budaq,***
***Sevgisi nifrətmi daşıyacaqdır ?***
***Dünyada nə qədər gunahsız uşaq,***
***Ömrünü əzabla yaşayacaqdır.***

İnsanın ömür yolunu bəzən ürək kardioqramına bənzədirlər. İnsanın da həyat yolunun yüksəlişi -enişi var ,sevincli-kədərli günləri var, cavanlıq və qocalıq dövrü var. Şair " Qocalar" şerində bu məsələyə bioloji baxımdan



deyil , maraqlı poetik yanaşma .ilə müraciət edir

***Yol düşər enişə ömrün dağından,***
***Çəliklə izləri didər qocalar.***
***Elə bil yolların qurtarmağından,***
***Qorxub asta-asta gedər qocalar.***

Şair bəzən cəmiyyətdə rastlaşdığı ədalətsizliyi, bezdirici- üzücü məqamları da dilə gətirmək məcburiyyətində qalıb. Məmur hikkəsindən ,yersiz və haqsız hədələrindən - başı açılmayan şairin ehtiraz səsini eşidirik.

***Bir düz yolum var idi,***
***Getməyə qoymadılar.***
***Oxuyub nəgmə oldum,***
***Ötməyə qoymadılar.***
***Çinar olum bitimmi?***
***Bitməyə qoymadılar.***
***İtib-batım arada… - zalımlar cəza bilib,***
***İtməyə qoymadılar.***

"Naxırcının dedikləri" şerində - gənclərin öz doğma kəndlərini tərk edib, şəhərə getmələrinə,kəndlərin boşalmasına və kənd həyatının təbiiliyinin öz ilkinliyinin və nizamının itirməsinə dözməyən şair naxırçının dili ilə həyacan səsini ucaldır..

***Neçə ev var-əti südü,***
***Şəhərdəncə hazır gəlir.***
***Elə bil ki ,şikəstlərə,***
***Ordan -burdan nəzir gəlir.***

Bahadur Fərman poeziyasında gənclərin sevə-sevə oxudugu məhəbbət şeirləri psixopatik məhəbbət deyil, real sevginin özəlliyindən, müqəddəsliyindən, saflığından və insan həyatında əhəmiyyətli aparıcı rolundan bəhs edilir,Ana öyüdü ilə bir gözəlin soragında olan gəncin keçirdiyi müqəddəs bakirə hisslərin, düşüncələrin həyəcanını aşağıdakı kimi vermişdir:

***Hələ xəbərsizəm xasiyyətindən,***
***Mənimçün cavabsız sualsan gülüm.***
***Ancaq bilirəm ki,bilirəm ki,sən***
***Həqiqət olacaq xəyalsan, gülüm.***

Bahadur Fərman sözə çox məhsuliyətlə yanaşan, onu yerində, məqamında düzgün istifadə etməyi bacaran ustad qələm sahiblərindən idi. Hər sözə hansı yükü tapşırmağı yaxşı bilirdi.

***Tələsmə saçımda dəni görməyə,***
***Dağlarda dumanı ,çəni görməyə,***
***Qəfildən kor olsam səni görməyə,***
***Zülmətin içində nur saxlamışam.***

Əslində Sair" zülmətin" əvəzində "kor gözün" ifadəsini yazmış olsaydı fikir daha düzgün ifadə edilmiş olardı . Lakin "kor göz" ifadəsi poetik səslənmir. Zülmətin içində ifadəsi dünyanın qaranlığa bürünməsini göstərməklə daha geniş məna kəsb etdiyini və daha poetik səslənməsini nəzərə alması şairin sozə, şeirə olduqca həssas yanaşmasından xəbər verir.

Bir sevgi şeiri. Şərhsiz. (Bəlkə də bu gənc oğlan şairin özü imiş!?)

***Görən gələcəkmi ?***
***Budur müamma.***
***Beynini, qəlbini bu sual didir.***
***Çinarın dibində dayanıb , amma,***
***Tufanlı dənizdə qayıq kimidir.***
***Boylanır yollara o, yana-yana ,***
***Deyəsən ilk dəfə ləngiyir zaman.***
***Yanan siqareti atıb bir yana ,***
***təzədən siqaret yandırır oglan.***

Tanınmış Şair Rübailin 50 illik yubleyində 15.11.1990 -cı ildə şairə həsr etdiyi "Qələmdaşım Rübailə" zarafat yana şerində hər iki şairə "çox yaraşan" arzunu "oxuyuruq:

***Vətən bizim, biz Vətənin,***
***Gözümüzün nuru şərik.***
***Mən gedirəm, işim çoxdur,***
***100 yaşında görüşərik.***

Poeziyamızın sevilən şairləri Bahadur Fərman və Şair Rübailə 100 yaşında görüşmək təəssüf ki, qismət olmadı. Nədənsə hər iki şair tələsdi və öz yaradıcıqlarını bu dünyada əmanət qoyub, axirət dünyasına üz tutdular .

Bir neçə kəlmə də Bahdur Fərmanın şəxsiyyəti haqqında.

Şəxsiyyəti ilə sənəti arasında bir dogmalıq və harmoniya vardı. Gəncə ziyalıları arasında hörmətə layiq xüsusi yeri vardı.

Çox danışmagı sevmirdi. Ürəyinin agrılarını çox hallarda dostlardan gizlətməyə çalışırdı.

Dərin düşüncə sahibi idi. Onunla kəlmə kəsəndə adam mənəvi cəhəhtdən zənginləşirdi. Ailəsinə bağlı idi. Evladları ilə nəfəs alırdı. Dosluqda sədaqətli və təmənnasız idi. Canında qəribə bir həyat eşqi, yaşamaq həvəsi vardı ! Vətəndaşlıq mövqeyini Vətəninə, dövlətinə, xalqına xidmət etməkdə, gərək olmaqda görürdü və bu amalla yaşayırdı.

Özü haqda aşağıdakıları səsləndirirdi:

Bir necə şeylə öyünürəm. Uzun yaşamagımın sirri bəlkə də budur. Məhəbbətim heç vaxt tükənməyib. Başqasının uguruna sevinə bilirəm. Məni tanımaq üçün şeirlərimi oxumaq kifayətdir.

**Bu ehtirafda məni təccübləndirən Bahadur müəllimin uzun ömür yaşamaq etirafıdır. Əslində isə onu uzun ömür yox, orta ömür (75-yaş) adlandırmaq olar. Bu -müdriklərə xas - ali insani xüsusiyyətdir. Başqalarına və cəmiyyətə yük olmadan təbii həyatını başa vurmaq istəyidir!**

**Ruhun şad olsun şair !!!**

**Sakit Təbib.**
Gəncə